BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2013*

**UOT 101.1:316**

# FƏLSƏFƏDƏ ÜNSİYYƏT PROBLEMİ

**A.Ə.ƏHMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***a_akhmedova@mail.ru***

*Məqalə sosial fəlsəfənin aktual və elmi ədəbiyyatda az işlənilmiş problemlərindən birinin təhlilinə həsr olunmuşdur. Burada ünsiyyət anlayışının mahiyəti açılır, formaları göstərilir, müasir dövrdə ünsiyyətin problemsiz (maneəsiz) olmasından bəhs edilir. Müəllif haqlı olaraq belə bir məqamı vurğulayır ki, ünsiyyət konkret bir fəaliyyətin nəticəsinə, o cümlədən maddi istehsala istiqamətlənməsə də, istehsalın baş verməsinə şərait yaradan amillərdəndir.*

**Açar sözlər:** ünsiyyət, cəmiyyət, mədəniyyət, fəaliyyət, insan, şəxsiyyət, münasibət

Ünsiyyət müasir dövrün aktual problemlərindən biridir. Çünki ünsiyyət cəmiyyətin inkişafına səbəb olan amillərdəndir. Belə ki, cəmiyyətin inkişafının mühüm şərti olan şəxsiyyətin formalaşması məhz ünsiyyət prosesində mümkündür. Ünsiyyət subyektlər arasında qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyət prosesində yaranaraq informasiya, təcrübə, qabiliyyət və bacarıqların, elmin və fəaliyyətlərin nəticələrinin mübadiləsi prosesidir. Ünsiyyət prosesində əsas rolu dil, siqnallar və işarələr oynayır ki, məhz ünsiyyət onlarsız mövcud ola bilməz. Məhz ünsiyyət prosesində insanın şəxsiyyəti, onun özünüdərki və dünyanı dərki formalaşır.

Başlıca olaraq ünsiyyət birbaşa və dolayı olmaqla iki cür fərqləndirilir. İştirakçılar arasında bilavasitə əlaqə zamanı birbaşa ünsiyyət baş verir. Dolayı ünsiyyət isə o zaman yaranır ki, subyektlər arasında məkan-zaman münasibətləri mövcud olur.

Birbaşa ünsiyyət zamanı əsas rolu dil – şifahi dil, mimika və jestlərin dili oynayır.

Dolayı ünsiyyət isə şifahi xalq ədəbiyyatı, incəsənət nümunələrinin qavranılması, KİV və s. ilə həyata keçirilir. Göründüyü kimi bu ünsiyyət birtərəfli xarakter daşıyır. Lakin onun insan şəxsiyyətinin inkişafında rolu böyük əhəmiyyət kəsb edir.

Bəşəriyyətin meydana gəlməsi ilə ünsiyyətin yaranması üst-üstə düşür. Belə ki, bəşər övladı özünü qorumaq, saxlamaq, yeni nəsillər yaratmaq üçün

digər insanlarla ünsiyyətdə olmalı idi. Bu isə ünsiyyətsiz qeyri-mümkündür. Burada ünsiyyət dedikdə isə mən təkcə dil ilə həyata keçirilən aktı deyil, həmçinin instinktiv olaraq mövcud olan siqnalları nəzərdə tuturam. Göründüyü kimi ünsiyyət dildən daha geniş həcmə malikdir. Ünsiyyətin həyata keçirilməsi təkcə dil ilə məhdudlaşmadığına görə belə nəticə çıxarmaq olar ki, bu biofizioloji akt bütün canlıların həyatında önəmli yer tutur. Məhz buna görə də, ünsiyyət linqvistlərin, semiotiklərin, məntiq, informasiya nəzəriyyəsi mütəxəssislərinin diqqət mərkəzindədir. Bununla yanaşı, psixoloqlar, filosoflar, estetiklər, antropoloqlar, ritoriklər, semiotiklər, kibernetiklər və digər ayrı-ayrı peşə sahibləri də ünsiyyəti müxtəlif aspektdən nəzərdən keçirir. Ünsiyyət problemləri ilə məşğul olmuş hər bir elmin özünəməxsus yanaşma tərzi var. Psixologiya ünsiyyəti insanın psixi və fizioloji strukturunu onun sosial statusu ilə determinizə edən psixofizioloji həyatın nəticəsi kimi öyrənir. Psixologiya ünsiyyətin daxili aspektlərini tədqiq edir. Ünsiyyətin ayrı-ayrı tərəflərini, komponentlərini, strukturunu analiz etmək daha çox psixologiya elminə məxsusdur. Məsələn, psixoloq Q.M. Andreyeva ünsiyyətin üç tərəfini göstərir: kommunikativ, interaktiv və perseptiv.

Sosiologiya, etnoqrafiya və mədəniyyətşünaslıq ünsiyyətin xarici aspektlərini nəzərdən keçirir. Bu elmlər üçün ünsiyyət iştirakçılarının bio-sosio-mədəni xüsusiyyətlərini öyrənmək vacib məsələdir. Bəs nə üçün ünsiyyəti müxtəlif elmlər bir problem səviyyəsinə qaldırır? Bildiyimiz kimi hər bir cəmiyyət həyatı ziddiyətlərdən yan keçə bilmir – bu ziddiyyətlər siyasi, sosial və iqtisadi zəmində olur, lakin hər bir partlayışın – istər sosial, istər siyasi, istərsə də iqtisadi zəmində olsun – müəyyən səbəbi var, bunun əsasında isə insanların bir-birilə ünsiyyəti dayanır. Tarix sübut edir ki, münasibətlərdəki anlaşılmazlıq, qeyri-müəyyənliyin nəticəsi cəmiyyət üçün hər zaman ağır olub.

Fəlsəfə ünsiyyəti insan fəaliyyətinin strukturunda və daha geniş götürdükdə isə mövcudluğun strukturunda öyrənir. Fəlsəfədə ünsiyyət yeni problem deyil, bu problemin öyrənilməsi qədim dövrlərdən başlamışdır. Ünsiyyət – sosial münasibətlər problemi kimi antik filosofların diqqətini çəkmişdir. Sokrat və Platonun əsərlərində nəinki şəxsiyyətdaxili münasibətlər, həmçinin etik problemlərdən sayılan insanlararası ünsiyyət də əsas yer tutur.

XVII-XIX əsrlərdə insanlararası münasibət məsələsində yeni baxışlar meydana gəldi. Yeni dövr fəlsəfi fikrində ünsiyyətlə bağlı müəyyən nəzəri fikirlərə rast gəlmək olar. Belə ki, R.Dekart, Q.Leybnis, F.Bekon, T.Hobbs, C.Lokk, D.Yum, C.Berkli, P.Holbax, J.J.Russo, D.Didro, İ.Kant, İ.Q.Fixte, Q.V.F.Hegel, Y.V.Şellinq, L.Feyerbax, K.Marks və F.Engels, O.Kont, Q.Spenser və digərlərinin əsərlərində ünsiyyətə mühüm amil kimi diqqət yetirilir. Artıq bu dövrdə ünsiyyət prosesində iştirak edən subyektlər bərabərhüquqlu şəxslər kimi tanındılar. J.J.Russonun ideyaları, İ.Kantın etika və estetikası, Şillerin estetik tərbiyəsi – bütün bunlar ictimai fikirdə, etika və estetika, pedaqogika, antropologiya sahəsindəki inkişafa nümunədir. Artıq bu dövrdə əsas diqqət mərkəzində olan məsələ insanın Allah və təbiətlə münasibətləri

deyil, şəxsiyyətlərarası münasibət məsələləri idi. XX-XXI əsrlərdə ünsiyyət probleminə maraq daha da artdı. İndi ünsiyyət yuxarıda qeyd etdiyim kimi bir neçə elmin tədqiqat sahəsinə çevrildi.

İ.Kanta görə insan başqa insanların əhatəsində yaşamağa məcburdur, "o insanların ki, insan həqiqətən onlara dözə bilmir, lakin onlarsız da keçinə bilmir" [4, 33].

Martin Büber də bu mövzuya müraciət edən filosoflardandır. Onun fikrincə ünsiyyət bir "Mən"in digər "Mən"lə görüşməsidir. Filosof bu görüşməni "ikinci mövcudluq" adlandırır. "Mən və sən" əsərində Büber yazır ki, sən və onlar arasında ünsiyyət – qarşılıqlı bəxşiş xarakterlidir. Belə ki, sən ona Sən deyirsən və özünü ona təslim edirsən, həmçinin o, sənə Sən deyir və özünü sənə verir [6] .

Haydeqqer göstərir ki, insan yalqız, tənha varlıq deyil. Hər bir insan digər insanların əhatəsində yaşamağa və fəaliyyət göstərməyə məcburdur. Ancaq başqalarının mövcudluğu və insanın onlarla həmrəyliyi ona gətirib çıxarır ki, özlüyündə yüksəkdə duran, unikal və yeganə olan subyekt artıq ortada dayanır və "simasızlaşır". Bu şəkildə görünməni Haydeqqer Das man adlandırır [6].

Ünsiyyət nəzəriyyəsinin inkişafına alman filosofu K.Yaspers "Ekzistensial kommunikasiya" nəzəriyyəsi ilə əhəmiyyətli dərəcədə xidmət etmişdir.

Fransız fəlsəfi fikrində ünsiyyət nəzəriyyəsinin inkişafı ekzistensializmin nümayəndəsi Q.Marselin adı ilə əlaqədardır. Marselin xidməti intersubyektivlik nəzəriyyəsinin işlənməsi ilə bağlıdır. Onun fikrincə, əsas əhəmiyyət kəsb edən məsələ subyektin obyektə münasibəti deyil, əsas vacib olan subyektə bütöv, tam kimi, yəni "Mən" olaraq yanaşmaqdır [6].

J.P.Sartrın fəlsəfi görüşlərində Mən Başqalarına qarşı qoyulur. Onun fikrincə istənilən ünsiyyət aktı dağıdıcı xarakter daşıyır. Belə ki, ünsiyyət prosesində Mən başqalarına qarşı gərginlik hiss edir, Başqalarından gələn çətinliklə qarşılaşır. Sartrın çıxardığı nəticə isə budur: "Cəhənnəm – Başqalarıdır" [3, 128].

Habermasa görə, hər bir kommunikativ fəaliyyətin məqsədi qarşılıqlı anlama əldə etməkdir. Qarşılıqlı anlama isə kor-koranə olmamalıdır. Müəyyən qanunlar yaradılmalıdır ki, bunlar da insanların bir-birini anlamasına yönəldilməlidir. Bu qanunları isə Habermas "Lebensvelt" (həyati dünya) qanunları adlandırır. O, hesab edir ki, bu qanunlardan hər zaman istifadə etmək olar, belə ki, həyatda gözlənilməz hadisələr və vəziyyətlər yoxdur. Habermasa görə hətta ən yeni hadisələr də əvvəlkilərə nəzərən meydana çıxır [6].

N.A.Berdyayevin fikrincə, başqası ilə ünsiyyətdə olmadan insan özünü tapa bilməz. O, hesab edir ki, məhz başqası "mən"ə onun əsl mahiyyətini göstərir [6] .

Ünsiyyət insan fəaliyyətinin bir istiqamətli forması deyil, o, qarşılıqlı təsirdir. Ünsiyyət zamanı insanlar nəinki bir-birilə münasibət qururlar, yaxınlaşırlar, həmçinin özünü müəyyənləşdirir, digər şəxsdən onun şəxsiyyətinin

varlığını və dəyərini tanımasını tələb edir. Lakin hazırkı dövrdə ünsiyyətin yuxarıda sadalanan funksiyalarını reallaşdırmaq mümkün deyil. Məhz dövrümüzdə ünsiyyət üçün dağıdıcı olan iki tamamilə bir-birinə zidd tendensiya vardır. Bir tərəfdən, individualizmin inkişafı insanın ünsiyyət qurmasını çətinləşdirir, yəni onu sözün həqiqi mənasında bacarıqsız edir. Bunun nəticəsində də saysız-hesabsız psixi, sosial və mədəni böhranlar və fəlakətlər baş verir. Digər tərəfdən isə, insanların kütlə daxilində qarşılıqlı fəaliyyəti inkişaf edir. Hər iki tendensiya ünsiyyəti dağıdaraq onu ya laqeyd ictimai münasibətə, ya da karların dialoquna çevirir.

Ünsiyyət – siniflər, sosial qruplar, şəxsiyyətlərarası qarşılıqlı təsir və əlaqələrdir. Məhz ünsiyyət vasitəsilə insanlar arasında və bütövlükdə isə millətlər arasında bilik və informasiya, təcrübə, müxtəlif fəaliyyətlərin nəticələri mübadilə edilir, bu isə cəmiyyətin inkişafına təkan verir.

Ünsiyyət – insan fəaliyyətinin struktur elementidir, onun formaları mədəniyyətin tərkibinə daxildir və mədəniyyətlə birgə addımlayır, birinin var olması digərinin mövcudluğunu şərtləndirir.

Ünsiyyət hər hansı bir fəaliyyətin nəticəsinə istiqamətlənməsə də ona xidmət edə bilər. O, elə bir prosesdir ki, başlıca məqsəd elə onun özündədir. Ünsiyyət insanın konkret və vəhdət halında (mənəvi və praktik) qarşılıqlı fəaliyyətidir.

Ünsiyyətin tiplərə ayrılması birmənalı olmayıb, onun müxtəlif xüsusiyyətliliyinə görə müəyyənləşdirilir. Məsələn, xarakterinə görə - formal və qeyri formal, məqsədinə görə - utilitar və utulitar olmayan, istiqamətinə görə - humanist və manipulyativ, özünü göstərmə formasına görə - vasitəli və vasitəsiz, səmimilik dərəcəsinə görə - açıq və qapalı, fəaliyyət istiqamətinə görə - işgüzar, ailəvi, idman kimi növləri fərqləndirilir.

Ünsiyyətin tarixi tipologiyasına görə iki tipi fərqləndirilir: 1) ənənəvi mədəniyyətlər üçün səciyyəvi olan funksional ünsiyyət və 2) kreativ mədəniyyətlər üçün səciyyəvi olan şəxsiyyətlərarası və şəxsiyyətdaxili ünsiyyət.

- Funksional ünsiyyət - eyni və ya müxtəlif sosial qrupların nümayəndələri arasında ənənə şəklini almış əlaqəni nəzərdə tutur. Bu əlaqə isə müvafiq sosial funksiyaların həllinə istiqamətlənmişdir.
- Şəxsiyyətdaxili ünsiyyət – iki konkret şəxsin əlaqəsidir. Bu əlaqə isə yalnız və yalnız onların özlərinin təqdim etməsinə istiqamətlənir.
- Şəxsiyyətlərarası ünsiyyətdə iştirakçılar təmsil etdikləri sosiumun müəyyənləşmiş funksiyalarını həyata keçirirlər, lakin bu zaman onların subyektivlikləri sosiumun xarakterində itmir; sosiumun xarakteri ilə şəxsiyyət arasında müəyyən fərqlər saxlanır [7] .

Ünsiyyət insanın, bütövlükdə cəmiyyətin həyatında xüsusi əhəmiyyətə malikdir. Məhz ünsiyyət insanların çoxşaxəli ehtiyaclarının nəticəsi kimi meydana çıxır. Ünsiyyət və fəaliyyət qarşılıqlı vəhdət təşkil edir. Belə ki, ünsiyyət, insanların qarşılıqlı münasibət yaratma üsulu, söz mübadiləsi olmadan heç bir fəaliyyət prosesi müvəffəqiyyətlə nəticələnə bilməz. Ünsiyyət

olmadan heç bir insan fəaliyyəti baş verə bilməz, bu da onu göstərir ki, cəmiyyət inkişaf edə bilməz və daha da irəli gedərək demək olar ki, ünsiyyət olmadan cəmiyyət mövcud ola bilməz.

Əvvəlki dövrlərdən fərqli olaraq XX əsrdə ünsiyyət probleminə maraq daha da artmışdır. Dini fenemonologiyada E.Levinasın fəlsəfəsində ünsiyyət əsas anlayış kimi ifadə olunur. Fəlsəfədə insanlar arasında qarşılıqlı münasibətlər problemləri ilə ekzitensializm, personalizm, fəlsəfi antropologizmin nümayəndələri geniş şəkildə məşğul olmuşlar. Bununla da fəlsəfədə ünsiyyət nəzəriyyəsi formalaşmışdır. Buna misal olaraq E.Münyenin, K.Yaspersin, M.Haydeqqerin, J.P.Sartrın adlarını çəkmək olar.

Pessimist fəlsəfənin nümayəndəsi olaraq J.P.Sartr belə bir iddia irəli sürürdü: gün gələcək münaqişələr ünsiyyətin yeganə forması olacaqdır. Bəzi detalları istisna edərək filosofun verdiyi proqnozla razı deyiləm. Çünki elm və texnikanın günbəgün inkişafı insanların həyatını, yaşayış şəraitini rahat və asan etməklə cəmiyyətin inkişafını sürətləndirir. Elm və texnologiya insanlar arasındakı əlaqə və münasibətləri qırılmaz edir, insanlar arasında ünsiyyəti artırır, insanların bir-birilə ünsiyyət yaratması üçün yeni üsul və vasitələr yaradır. Əvvəllər ünsiyyətin şifahi və yazılı formaları var idisə, müasir dövrdə şifahi ünsiyyətlə əlaqəli olan vizual ünsiyyət forması da yaranmışdır. Bir neçə onillik öncə yazılı ünsiyyətin çətinlikləri var idisə, hazırda heç bir çətinlik olmadan insan yazılı formada ünsiyyət qura bilər.

Vizual ünsiyyətin də üstünlükləri çoxdur və onun insan həyatında rolu əvəzedilməzdir. Belə ki, kilometrlərlə uzaqdakı insanlarla ünsiyyət qurmaq cəmiyyətin inkişafı üçün mühüm addımdır. Bu həm xarici ölkə insanları ilə təmas qurmaq, yenilikləri tez tutmaq imkanı verir, həm də insanı öz kökündən, doğmalarından uzaq düşməyə qoymur. Bu da doğma dilin, mentalitetin yaşaması üçün mühüm vasitədir.

Yaspersə görə, ünsiyyət həqiqətdir, həqiqətin aşkar edilməsi yoludur. Onun fikrincə, gözəllik, qayğı və təəccüb kimi stimullar insanları ünsiyyət qurmağa vadar edir. Əgər yuxarıda sadaladığımız anlayışlar insanların gündəlik praktikasında (həyatında) özünü göstərirsə, onda insanlar arasında ünsiyyət yaranır. Yaspersin belə bir fikri də maraqlı səslənir: əgər mən öz-özümə, təkbaşıma həqiqəti anlasam, onda ünsiyyətin yetərsiz olduğu, çatmadığı (ünsiyyət olmadığı) zaman yaranan narahatlığı hiss etmərəm və eyni zamanda ünsiyyət baş verdiyi zaman yaranan həzzi ünsiyyətdən kənarda duya bilmərəm. Çünki məhz ünsiyyət prosesində mən özüm kimi oluram. Bu zaman mən sadəcə olaraq yaşamır, həm də həyatı mükəmməlləşdirirəm [8, 26-27].

Yaspersə görə, ünsiyyəti aşağıdakı mənalarda nəzərdən keçirmək olar: insanın dünya ilə ünsiyyəti, başqaları ilə ünsiyyət, insanın öz-özü ilə ünsiyyəti və ali ünsiyyət. Birinci anlamda Yaspers obyektiv dünya ilə insanın öz dünyasını bir-birindən fərqləndirir. Obyektiv dünya insandan asılı olmayaraq mövcud olan dünyadır. İnsanın dünyası isə əsasında insanın düşüncəsi, davranışı və ünsiyyəti duran dünyadır. Obyektiv dünya uca dağları, yaşıl

meşələri və s. ilə zəngin mənzərəli dünyadır. Ancaq bu zənginliklər dünyasında insan tənhadır. Yaspersə görə, bununla yanaşı insan obyektiv dünya ilə ünsiyyət qura bilər. Bu, onu qavrayaraq, ona təsir edərək mümkündür. Əgər dünya mövcuddursa, bu, mənim düşüncələrimdə mövcuddur. Əgər dünya mövcud deyilsə, demək mən mövcud deyiləm [2, 494].

İnsanın başqaları ilə ünsiyyəti – Yaspersə görə, insanın hər zaman başqalarına ehtiyacı vardır. İnsan özünün mövcudluğunu başqaları ilə ünsiyyətdə dərk edir.

Həqiqətin aşkar edilməsi də məhz insanların bir-birilə ünsiyyəti zamanı mümkündür.

İnsanın öz-özü ilə ünsiyyəti – bunu Yaspers həqiqi ünsiyyət adlandırır. Həqiqi ünsiyyət onun fikrincə emosiyadır. İnsan özü üçün hər zaman rahatlıq və xoşbəxtlik arzulayır və onun xoşbəxt olması üçün digər insanlarla ünsiyyəti vacibdir. Burada Yaspers insan azadlığı məsələsinə də toxunur və qeyd edir ki, azadlıqla ünsiyyət qırılmaz əlaqədədir. Belə ki, ünsiyyət olmadan insan mövcud ola bilməz, o zaman isə deməli, azadlıq da mümkün ola bilməz.

Ali ünsiyyət dedikdə isə Yaspers insanın Allahla olan ünsiyyətini nəzərdə tutur. İnsanın Allaha dua etməsi, ondan kömək istəməsi və ona tapınması ali ünsiyyətə aiddir. Onun fikrincə bu ünsiyyət hər bir şəxsin gündəlik yaşamının bir parçasıdır [8, 324].

Hazırda ünsiyyətə maraq mədəniyyətin bütün sferalarında görünür, onun şüaları adi həyatdan tutmuş siyasətə və elmə qədər uzanır. Ünsiyyətə maraq XXI əsrdə daha da artmışdır. Bunun mühüm səbəbi tarixi vəziyyətin, insanlığın, humanist ideyaların dövrün mərkəzində dayanmasıdır. Texnika, rabitə və nəqliyyat sahəsindəki irəliləyişlər minillik tarixdə insanlara ilk dəfə həqiqətən birləşmək imkanı verir. Dünyəvi inteqrasiya şəraitində ünsiyyətin yolları və vasitələri ciddi problem olaraq qarşıda durur.

## ƏDƏBİYYAT


1. İsmayılov F. Seçilmiş əsərləri. I cild. Bakı, 2011, 576 s.
2. İsmayılov F. Seçilmiş əsərləri. II cild. Bakı, 2011, 664 s.
3. Sartr J.P. Varlıq və Heçlik: Fenomonoloji ontologiya təcrübəsi. Bakı, 2012, 856 s.
4. Агальцев А.М. Проблема общения в нравственно-критической философии И.Канта. Вестник Томского Государственного Университета. 2007, №302, с.32-35.
5. Демченко Л.М. Проблема единства экзистенциальной коммуникации и экзистенциального прояснения в философии К.Ясперса: Текст // Вестник Оренбургского государственного университета. 2006. Т. 1, №1, с. 25-34.
6. Общение и этика общения *hi-edu.ru/e-books/*
7. Ясперс К. Экзистенция и коммуникация http://existentialism.traktaty.ru
8. Ясперс К. Смысл и назначение истории: пер. с нем. М., 1991, 527 с.

## ПРОБЛЕМА ОБЩЕНИЯ В ФИЛОСОФИИ

**А.А.АХМЕДОВА**

### РЕЗЮМЕ

Научная статья посвящена исследованию одной из актуальных проблем современности – проблема общения в философии. В данной статье говорится о роли и значении общения, выявляются соответствующие ему и отличающие его исторические типы, анализируются структурные особенности по отношению к различным философским школам.

На основании приведенных в работе рассуждений делается вывод о том, что раньше были приняты устные и письменные формы общения, то в современный период появилась новая визуальная форма общения

**Ключевые слова:** общение, общество, культура, деятельность, человек, личность, отношения

## THE PROBLEM OF COMMUNICATION IN PHILOSOPHY

**A.A.AHMADOVA**

### SUMMARY

The problem of communication is one of the most urgent problems of philosophy. The main aim of the article is to demonstrate the role of communication in philosophy. It maintains that the problem of communication has changed during the development of philosophical thought. Yet, it has become one of fundamental issues in our time.

The article concludes that the novel visual form of communication prevails over the known written and oral forms.

**Key words**: intercourse, society, culture, activities, human, personality, attitude